# İdman xəbərləri

## «Qəbələ» yoxlama oyununda qalib gəldi



Milli komandaların oyunları ilə əlaqədar Topaz Premyer Liqasında yaranan fasilədə hazırlıqlarını davam etdirən "Qəbələ" yoxlama görüşü keçirib.

Məşqlərini Bakıda gerçəkləşdirən "qırmızı-qaralar" "Sumqayıt"la görüşüb.

12-ci dəqiqədə Elvin Məmmədov hesabı açıb. Buraxılan qoldan sonra fəallığı artıran "qırmızı-qaralar" Asif Məmmədovun vurduğu qolla fasiləyə qədər hesabda tarazlıq yaradıb.

İkinci hissədə Rauf Əliyev və Əli Mürsəlov meydana daxil olub və 5 dəqiqə sonra Rauf Əliyev qələbə qoluna imza atıb. Beləliklə, "Qəbələ" yoxlama oyununda 2:1 hesablı qələbə qazanıb.

Xatırladaq ki, "Qəbələ" Topaz Premyer Liqasındakı növbəti oyununu aprelin 1-də "Sabah"a qarşı keçirəcək.

## Taekvandoçumuz qızıl medal qazandı



"Qəbələ" İdman Klubunun taekvondoçusu Cavad Ağayev növbəti uğuruna imza atıb. Böyüklərdən ibarət Azərbaycan milli komandasının üzvü olan idmançımız Belçikanın Lommel şəhərində keçirilən beynəlxalq turnirdə fərqlənib. O, sayca 40-cı olan G2 kateqoriyalı "Belgium Open" turnirində dayanq üzərinə çıxıb. 63 kq çəki dərəcəsində çıxış edən Ağayev bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub.

Xatırladaq ki, turnirdə 69 ölkədən 1272 taekvondoçu mübarizə aparıb.

# Quzuqarnı göbələyi

El arasında quzuqarnı adlanan göbələyin yığım mövsümüdür. Bir çoxunun adını belə eşitmədiyi quzuqarnını meşəliklərdən martın əvvəllərindən başlayaraq cəmi 20-25 gün ərzində toplamaq olar. Quzuqarnının rəngi yarpaqlardan seçilmir. Buna görə də toplamaq çətindir. Meşədə əsasən qovaq ağaclarının altında bitir. Hava rütubətli olduqda bu göbələyə daha çox rast gəlinir.

Quzuqarnının bir kiloqramı 10-15 manata satılır. Bu göbələyin yığılması zövqlü məşğuliyyət olsa da, bunun öz çətinliyi var. Bir gün ərzində meşədən maksimum 4-5 kiloqram quzuqarnı toplamaq olar.

Quzuqarnı dadına və tərkibindəki vitaminlərin zənginliyinə görə digər göbələklərdən fərqlənir. Bu göbələyin zəhərlisinə rast gəlinmir. Yemək üçün hazırlanması isə çox sadədir.



İsti su ilə yuyulub təmizləndikdən sonra bir neçə dəqiqə suda qaynadılır. Sonra xırda doğranmış soğanla birlikdə qovurulur. Bişdikdən sonra üzərinə yumurta vurularaq süfrəyə verilir. Bundan başqa, çöl şəraitində quzuqarnının şişə çəkib kababını da hazırlamaq mümkündür.

# Maraq dünyamız

## Astronomlar qalaktikalara yayılan güclü işıq selini tədqiq edirlər

Astronomlar nəhəng ölçüdə qara dəlikdən güclü küləyin kainata doğru gətirdiyi geniş işıq seli müşahidə ediblər.

AZƏRTAC "Science News" elmi portalına istinadla xəbər verir ki, astronom Mark Leysinin həmkarları ilə birlikdə Çilidəki "Atakama" rəsədxanasında apardığı müşahidələr zamanı "Kvazar" adlanan qara dəlikdən əsən şiddətli küləyin gözqamaşdırıcı işıq seli gətirdiyi müşahidə edilib. Külək 228 000 işıq ili məsafəyə yayılıb. Bundan əvvəl astronomlar tərəfindən cəmi 3 000 işıq ili məsafəsində hiss olunan külək qeydə alınıb.

Bu müşahidələrin nəticələrinin təhlili alimlərin gündəminə qara dəliklərin qalaktikalarla birlikdə necə böyüməsi və onlara təsiri problemlərinin öyrənilməsini gətirib. M.Leysi bildirib ki, qara dəliklərin ən güclü qravitasiyaya malik olması çoxdan məlumdur. "Paradoksal olsa da, nəhəng ölçülü qara dəliklər udduğu göy cisimlərini əks istiqamətə də qaytara bilir, habelə "qonaq" qalaktikalardakı qazları və plazmaları sorub çıxarır. Bundan sonra qara dəliklər öz "qənimətinin" qurbanı olur və içərisinə bir dəfədən artıq istifadə edə bilməyəcəyi hədsiz miqdarda materiallar toplanır. Nəticədə, daxildə olan istilik yüz milyonlarla dərəcə selsiyə yüksəlir və qara dəlik "Kvazar" parlaq lövhəsinə çevrilir",–deyə astronom prosesi müfəssəl şəkildə izah edib.

Qara dəlikdən çıxan güclü külək və işıq selini, habelə onun içərisindəki temperaturu və maqnit sahəsini Şarlottesvil Milli Rəsədxanasındakı astronomlar da tədqiq edirlər. Onlar da Leysinin təhlilini təsdiq edərək bildiriblər ki, bu maraqlı kosmos hadisəsinin səbəbi qara dəliyin bütün materialları uda bilməməsi və onların bir hissəsini kainata püskürməsidir.

Alimlər, əlavə olaraq, güclü küləyin gətirdiyi işıq selinin qalaktikalara, o cümlədən bizim kainata da təsirini öyrənirlər. Bu tədqiqatlarda ən maraqlı məqam qara dəlikdən çıxan qazların yeni ulduzları formalaşdırması və qalaktikaları daha da genişləndirməsidir. Deformasiyaya uğrayacaq bəzi qalaktikaların həcminin isə Günəşin ölçüsündən 10 trilyon dəfə böyük olduğu bildirilir. Küləyin və işıq selinin daşıdığı enerjinin həcmi və çatacağı son məsafəni dəqiqləşdirmək də nəzəri cəhətdən mümkün hesab olunur. M.Leysi və həmkarları tərəfindən Yerdən 268 milyon işıq ili uzaqlıqda olan HE 0515-4414 kvazarının tədqiqi nəticələri göstərib ki, püskürmə nəticəsində hasil olan isti qazlar kosmik mikrodalğalardan fotonlar yayır və onların fonunda qara dəliyi də aydın şəkildə müşahidə etmək mümkündür. Sunyayev-Zeldoviç effekti adlanan bu fenomen yalnız ən həssas "ALMA" teleskopu ilə görünə bilər. Bununla yanaşı, HE 0515-4414 kvazarından gələn küləyin yayıldığı məsafəni onun enerjisini ölçmək vasitəsilə müəyyən edirlər. Məlum olub ki, işıq selinin enerjisi kvazarın ümumi enerjisinin 0,1 faizini təşkil edir.

# Bilirsinizmi?

● Şahmat oyunu Milladdan öncə bir hind riyaziyyatçısı tərəfindən ixtira edilmisdir.

● Sakit okeanın qərbində yerləşən Marian çokəkliyi dünyada məlum olan çökəkliklərdən ən dərinidir.

● Bakı şəhərində yerləşən Nikola Teslanın heykəlinin müəllifi Azərbaycanın xalq rəssamı, heykəltəraş Ömər Eldarov, memar Sənan Salamzadədir.

● Buzun əriməsi üçün 330 coul/kq, dəmirin əriməsi üçün 270 coul/kq istilik həcmi tələb olunur.

● Qusların bədən temperaturu insanın bədən temperaturundan 7-8 dərəcə çox olur.

● Meksikanın 34-cu prezidenti olmus Pedro Laskurain tarixdə ən qısa muddət–cəmi 45 dəqiqəlik prezident vəzifəsini tutaraq "Ginnesin Rekordlar Kitabı "na düşmüşdür.

● Azərbaycanın ən hündür körpüsü Qrız körpüsüdür.

● Planetlərin paradı 179 ildən bir baş verir.

● Boyuk Britaniyanın ən qədim ali məktəbləri olan Oksford və Kembric universitetləri–Oksbric kimi tanınır.

● Əkiz uşaqların öz aralarında yaratdıqları və sadəcə onların başa düşdükləri gizli dilə kriptofaziya deyilir.

**Topladı: Səfa ASLANOV.**

# İtmişdir

Qəbələ Rayon Dövlət Notariat Kontorunun 25 fevral 2005-ci il tarixli 4 Ə-01\18 nömrəli alqı-satqı müqaviləsi ilə Çuxur Qəbələ kənd sakini **Abdurahmanov Nizami Səməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 330 nömrəli (kod 40617018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 dekabr 2002-ci il tarixli 17 saylı qərarı ilə Nohurqışlaq kənd sakini **Mehdiyev Firidun Ağabəy oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 239 nömrəli (kod 40616028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

AR ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 22 noyabr 2014-cü il tarixdə **İsmayılova Sevinc Muxtar qızına** verilmiş RX seriyalı 0520990 nömrəli (qeydiyyat nömrəsi 1914009055, reyestr nömrəsi 406013059750) hüquqların, dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** və həmin tarixdə verilmiş AA seriyalı 007032 nömrəli (reyestr nömrəsi 406013059750) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyəti aparatının kollektivi sabiq iş yoldaşları **ZAHİD ƏFƏNDİYEVİN** vəfatı ilə əlaqədar mərhumun yaxınlarına və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi sabiq iş yoldaşları **ZAHİD ƏFƏNDİYEVİN** vəfatı ilə əlaqədar mərhumun yaxınlarına və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib Qüdrət Səmədov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1750